**MSŞA Koalisiyası Monitorinq Qrupunun aylıq iclası (29/03/2007)**

# Protokol №1

Bakı, 29.03.2007

## Iclasda iştirak edirdilər:

1. Azər Mehtiyev
2. Fəqan Əliyev
3. Ruhəngiz Hüseynova
4. Himayət Rizvanqızı

## Gündəlik:

1. Təşkilati məsələlər
2. Fəaliyyətin planlaşdırılması

## 1-ci məsələ üzrə:

Dinlənildi:

Gündəlikdə duran birinci məsələ ilə bağlı Azər Mehtiyev çıxış etdi. O ilk olaraq Qrupun ilk dövr üzrə sədrinin seçilməsini və H. Rizvanqızının birinci dövr üçün MQ –nun işinə sədrlik etməsini təklif etdi.

Təklif səsə qoyuldu və yekdilliklə qəbul olundu.

Həmçinin təşkilatı məsələlər sırasında MQ-nun aylıq iclaslarının vaxtı, yeri və protokollaşdırılması, fəaliyyəti haqqında məlumat yayımı işinin təşkili, MQ-nunu Koalisiya Şurasının toplantılarında iştirakının təmin olunması məsələləri müzakirə olundu.

Qərara alındı:

1. H. Rizvanqızı ilk dövr üçün MQ-nun sədri seçilsin.
2. MQ-nun aylıq iclasları hər ayın axırıncı həftəsinin 4-cü günü Koalisiyanın ofisində keçirilsin və MQ-nin bütün toplantıları protokollaşsın.
3. Koalisiyanın veb saytında MQ fəaliyyətinin işıqlandırılması üçün yer ayrılması MQ üzvləri üçün ayrıca e-mail şəbəkəsinin formalaşdırılması üçün Koalisiya rəhbəliyinə müraciət olunsun.
4. Koalisiya Şurasının toplantılarında növbəlilik prinsipi ilə hər ay bir MQ üzvünün iştirakı təmin olunsun. Aprel ayı üçün Şuranın toplantılarında iştirak Ruhəngiz Hüseynovaya tapşırılsın.
5. MQ üzvlərinin Şura toplantılarında iştirakı üzrə fəaliyyəti tənzimləyən Təlimat hazırlansın. Təlimatın hazırlanması Azər Mehtiyevə tapşırılsın.

## 2-ci məsələ üzrə:

Dinlənildi:

Gündəlikdə duran ikinci məsələ ilə bağlı Himayət Rizvanqızı qeyd etdi ki, qrupun fəaliyyətinin planlaşdırılması üçün əvvəlcə MSŞA Koalisiyasının Əsasnaməsi və MQ Əsasnaməsi əsasında MQ –nun fəaliyyət planının tərtib olunması təklif etdi.

Təklif səsə qoyuldu və yekdilliklə qəbul olundu.

Həmçinin Koalisiyanın həyata keçirdiyi layihələrin MQ tərəfindən monitorinqi üzrə fəaliyyəti tənzimləyən sənədin- Təlimatın hazırlanması məsələsi müzakirə olundu.

Qərara alındı:

1. MQ –nun fəaliyyət planı tərtib olunsun. Bu iş Himayət Rizvanqızına tapşırılsın.
2. Koalisiyanın həyata keçirdiyi layihələrin MQ tərəfindən monitorinqi üzrə fəaliyyəti tənzimləyən Təlimat azırlansın və bu Azər Mehtiyevə həvalə olunsun.